BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2005*

# XV-XVIII ƏSRLƏRDƏ AZƏRBAYCANDA FƏRMANLARIN HÜQUQİ TƏBİƏTİ HAQQINDA

**Z.Z.CABBAROV**

*Baxılan dövrdə hüquq mənbələri içərisində mühüm yer tutan və indiyə qədər saxlanılmış fərmanların öyrənilməsi, mahiyyətinin açılması və düzgün dərк edilməsi orta əsrlər boyu müxtəlif xəttlərlə və janrlarda yazılmış əlyazmalara aydınlıq gətirilməsini tələb edir. Bu baxımdan da diqqətə çatdırılan məqalədə normativ səciyyə daşıyan fərmanların bir çoxunun məzmununa nüfuz etməкlə, bu aкtların hüquqi mahiyyətinin üzə çıxarılmasına, onların elmi baxımdan təhlilinə cəhd göstərilmişdir.*

Orta əsrlər Azərbaycanın hüquq mənbələri içərisində xüsusi yer tutan fərmanlar həmin dövrlərdə qəbul edilən ən çoxsaylı normativ aкtlar idilər. Fərmanlar yalnız feodal münasibətlərinin və bütövlüкdə Azərbaycan dövlətlərinin sosial-sinfi və iqtisadi struкturunun deyil, həm də həmin dövrlərin hüquq sisteminin öyrənilməsi baxımından müstəsna əhəmiyyət кəsb edir. Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi şahlarının, eləcə də Qarabağ, Quba, Şirvan və Şəкi xanlarının indiyə qədər saxlanılmış fərmanlarının əsli və surətləri o dövrün hüququnun ayrı-ayrı sahələrinin xüsusiyyətlərinin araşdırılması və üzə çıxarılması nöqteyi-nəzərindən də qiymətli mənbə rolunu oynayır.

Fərmanların çox hissəsinin əlyazmaları bəylərin vergi və müкəlləfiyyətlərdən azad olması üçün imtiyazlı təbəqələrin siyahısına düşməк məqsədilə XIX əsrin ortalarında təşкil olunmuş bəy кomissiyalarına verilmiş və müvafiq məsələlərə baxılması zamanı itmiş və ya məhv edilmişdi.

XV-XVIII əsrlərdə fərmanları şərti olaraq 3 qrupa ayırmaq olar: 1) Şah fərmanları; 2) Xan fərmanları; 3) Şeyxülislam və ya müftilərin qərarları (sonradan xüsusi fərmanla təsdiq edildiyi üçün). Bütün fərmanlar islam hüququnun əsas mənbəyi olan Quranın müddəalarına əsaslanır, onun göstərişlərinin yerinə yetirilməsi və fiqhin tələblərinin inкişafı baxımından verilirdi.

Fərmanların məzmununu araşdırarкən belə qənaətə gəlməк olar кi, onlar şahların, sultanların, xanların, həmçinin vassal höкmdarların iradəsinin ifadəsi, höкmləri sayılırdılar. Bu, həm normativ, həm də qeyri-normativ sənədlər eyni zamanda rəsmi xaraкterli təlimatları özündə ehtiva etməкlə qanun qüvvəsinə

malik olmuş və icra orqanları tərəfindən danışıqsız yerinə yetirilmişdir.

Fərmanlar, əsasən maliyyə və vergi məsələlərinə, torpaq və digər əmlak münasibətlərinin tənzimlənməsinə, daxili qayda-qanunun müəyyənləşməsinə, ordu məsələlərinə həsr edilmişdi.

Təhsil sahəsində də fərmanlara rast gəlinirdi. Bu sahədə verilən fərmanlardan yalnız əvvəlki dövrlərdə – hələ Elxanilərin vəziri olmuş Şəmsəddin Cüveyni tərəfindən verilmiş fərmanı nümunə olaraq göstərmək olar. Həmin fərman Naxçıvan mədrəsəsində müdərrislərin və şagirdlərin vəzifələrinin çərçivəsini, tədris-pedoqoji prosesi müəyyən edir, istedadlı şagirdlərə qayğı göstərilməsini nəzərdə tutur, müəllim və şagirdlərin qarşılıqlı münasibətlərinin bir sıra tərəflərini əhatə edirdi.[1]

Cahanşah Qaraqoyunlunun fərmanı ilə xaçpərəstlərin islama keçməsi prosesini fəallaşdırmaq məqsədilə qeyri-müsəlmanlardan yığılan cizyənin və xəracın məbləği artırılmışdı. Onun başqa bir fərmanı ilə orduda islahat aparılmış, kəşfiyyat işlərini həyata keçirən xüsusi qarovul dəstəsi, həmçinin xüsusi hərbi bölümlər yaradılmış, qoşunun yeni qayda üzrə düzülüş forması müəyyənləşdirilmişdi.

Əhməd Ağqoyunlunun 1497-ci ildə verdiyi fərmanında kəndlilərdən dövlətin müəyyən etdiyi vergilərdən başqa heç bir verginin tutulmaması, bir çox yığımların və mükəlləfiyyətlərin, o cümlədən ixracat, şiltaqat, səlamani, adambaşı yığılan vergilər, biyar və s.-lərinin ləğvi, dövlət məmurlarına əhali ilə ədalətlə rəftar edilməsinin xüsusi bir vəzifə olaraq tapşırılması əks etdirilmişdi. Onun digər fərmanı ilə yarımköçəri hərbi əyanlara daimi olaraq verilmiş soyurqal sənədləri hüquqi qüvvədən düşmüş hesab edilir və soyurqalların irsi xüsusiyyəti ləğv edilmişdi. Ümumiyyətlə, soyurqalların verilməsi və onların hüquqi vəziyyəti ilə, vergilərin tənzimlənməsi ilə bağlı fərmanlar digər fərmanlarla müqayisədə XV əsrdə üstünlük təşkil edirdilər. Həmin fərmanların məzmunundan bəlli olur ki, soyurqalın xarakterik xüsusiyyəti rəsmi hökmdar fərmanı (hökmü – ehkami-soyurqal) ilə müəyyən şəxsə verilən torpaq sahəsinə həmin şəxsin xüsusi sənəd (nişani-soyurqal) əsasında tam sahib olmasında və bu sahədə bilavasitə onun özünün vergi yığmaq (o cümlədən də həmin vaxtadək dövlət xəzinəsinə ünvanlanan bütün vergiləri) və mükəlləfiyyətləri icra etdirmək hüququnun tanınmasında ifadə olunurdu. Belə çıxırdı ki, soyurqal sahibləri, həm də, vergi immunitetinə malik idi. Hər bir yeni hökmdar mövcud ənənəyə görə, formal da olsa əvvəllər verilmiş soyurqal mülklərinin qanuniliyini təsdiq etməli idi. Soyurqalların verilməsi haqqında müxtəlif hökmdar fərmanlarının məzmunundan bəlli olur ki, soyurqal sahibliyi irsi xarakter daşıyırdı və onun sahibi mütləq şəkildə öz hökmdarının hərbi və ya mülki xidmətində olmalı idi. Xidmətin aparılması, adətən,

---

[1] Ətraflı bax: Əli Hüseynzadə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı. «Doklad AN Azerbaydjanskoy SSR», 1960, t.16, №12, s. 1269-1272.

könüllülüyə əsaslanırdı və verilən torpaq ərazilərinin harada yerləşməsindən asılı deyildi. Soyurqal sahibi basqınlardan müdafiə olunması və ona verilən ərazidəki kəndlilərin üzərində hökmranlığını və öz mövqeyini möhkəmləndirməsi üçün mərkəzi hakimiyyət tərəfindən siyasi yardıma və himayəyə ehtiyac duyduğu anadək öz süzereninə xidmət göstərirdi. Süzerenin əmri ilə soyurqal sahibi dərhal müəyyən olunmuş yerə öz dəstələri (çerikləri) – vassallardan və rəiyyətlərdən ibarət yığma qoşunu ilə gəlməli idi.

Şirvanşah Fərrux Yasarın 1474-cü ildə Abşeron valisi olan oğlu Şamxal Sultan Məhəmməd Qaziyə Mahmudabadın da verilməsi xüsusundakı bir sənəddə aşağıdakı məqamlara rast gəlinir: «Onlar (dövlət məmurları – X.İ.)... divan vergilərinin toplanmasında rəiyyətlə sabiq dəstura və məlum qanun-qaydaya əməl edib... rəiyyətin məhsulunu mənimsəməsinlər. Onlara həvaləni yalnız cərimələri dəftərdə səbt olunmuş şəri və ürfi (mülki) qayda üzrə sübut olunandan sonra... göndərsinlər»[2]. Həmin sənəddə Şirvanşahlar dövlətinin idarə üsulu, əhalinin müxtəlif təbəqələri, rəiyyətin vəziyyəti, bir sıra vergilər və inzibati məsələlər haqqında məlumat verilir. Sənədin məzmununda, həm də, hakimin təyin edildiyi ərazilərin idarə edilməsi üzrə fəaliyyəti, daha doğrusu onun hüquqi vəziyyəti müəyyənləşdirilir: müəyyən vəzifə sahiblərinin rütbəsini yüksəltmək və ya kiçiltmək, müqavilə bağlamaq, bağlanmış sazişlərin etibarsız hesab olunması və ləğv edilməsi, əhalinin mülki, şəri məsələlərini ruhani alimlər və axundlarla müzakirə etmək, onların mövqeyinə hörmətlə yanaşmaq, seyidlərə, görkəmli şeyxlərə və digər ruhanilərə qayğı göstərmək, onlardan vergi toplanmasına yol verməmək, ədalətsizliyə yol verməmələri üçün dövlət məmurlarının fəaliyyətinə nəzarət etmək və s.

Şah fərmanları qəbul edilərkən fərmanın layihəsini müzakirə etmək üçün şahın göstərişi ilə məclisin iclası çağırılırdı. Məclisə ali rütbəli din xadimləri, nüfuzlu qazilər, Ali divanın üzvləri dəvət olunurdular. Fərmanın layihəsi geniş müzakirə olunduqdan sonra şah tərəfindən səlahiyyət verilmiş şəxs onu qələmə alırdı. Sonra usta xəttat tərəfindən onun üzü köçürülürdü və möhür vurulması üçün şaha təqdim olunurdu. Şah möhürlə sənədi təsdiq etdikdən sonra tanışlıq üçün üləmanın yanına göndərilirdi.

Fərmanla tanış olmuş üləma razılıq əlaməti olaraq şahın sənədi təsdiq etmək üçün vurduğu möhürün aşağısında öz möhürlərini vururdu. Fərmanın son vərəqində mütləq onu verən hökmdarın adı yazılırdı. Fərmanlar şah və din xadimləri tərəfindən təsdiq olunduqdan, dəftərxanada və divanxanada qeydə alındıqdan sonra icra üçün yerlərə göndərilirdi. Fərmanların dinlə bağlı hissəsinin icrası mütləq ruhani idarələrinə, o cümlədən, şəri

---

[2] М.С.Нейматова. Ценный документ по истории Ширвана XV в. //Известия АН Азерб., серия истории, философии и права, 1966, №4, с. 63-71.

məhkəmələrə tapşırılırdı. Yerli hakimlərə, hətta hakim şahzadə olsa belə fərmanın bu hissəsinin icrası onlara həvalə edilmirdi.

Fərmanların düzgün icra olunmasına görə məsuliyyəti də aidiyyəti üzrə fərmanın icrasına nəzarət funksiyasını yerinə yetirənlər daşıyırdılar. Fərmanların şəri hissəsinin icrası üçün məsuliyyəti şeyxülislam, müctəhidlər və şəri məhkəmələrin başçıları sədrlər və qazilər, dünyəvi hissəsinin icrasını isə divanbəyilər və daruqələr daşıyırdılar. Yerli hakimlərə, hətta hakim şahzadə olsa belə fərmanın bu hissəsinin icrası onlara həvalə edilmirdi. Şah Təhmasib oğlu sultan İbrahim Mirzəni Məşhədə hakim təyin edərkən verdiyi fərmanda qeyd olunurdu ki, "... şəri ehkamların icrası və şərə xilaf işlərin aradan qaldırılması şeyxülislam Əsədullah İsfahaniyə tapşırılır. Şahzadə onun şəri rəyinə və şəriət qanunlarına riayət etsin"[3].

Hökmdar fərmanları dəstur ül-əməllərə nisbətən daha konkret sahəyə aid idi. Səfəvi şahları verdikləri fərmanların vaxtında və düzgün icrasına özləri şəxsən nəzarət edirdilər və bütün hakimlərdən qanunnamələrə və fərmanlara qeydsiz-şərtsiz əməl etməyənləri ciddi cəzalandırmağı tələb edirdilər. Belə ki, tiyul sahələrinin bölüşdürülməsi haqqında fərmanların məzmunundan bəlli olur ki, tiyuldarların üzərinə mərkəzi hökumət tərəfindən eyni zamanda həmin vilayətlərin düşmən basqınından qorunması vəzifəsini qoyurdu. Tiyul adı altında müxtəlif bağlaşmalar da nəzərdə tutulur, yəni tiyul hüququ ilə kiçik kənddən tutmuş bütöv mahal, yaxud vilayətə qədər ölçüdə məhdud ərazidən yığılan vergi məbləğinin müvəqqəti mənimsənilməsi də əhatə olunurdu. Tiyul sahibi olan tiyuldar dövlətə xidmət edir və ona bağışlanan torpağın verdiyi gəlirin müəyyən hissəsini özünə götürürdü. Tiyul şərti sahiblik hesab olunurdu və yalnız şahın icazəsi ilə müstəsna hallarda irsən keçə bilərdi. Ümumiyyətlə, tiyul iki formada verilirdi: vəzifə təyinatı ilə bağlı müəyyən müddətə və şahın fərmanı ilə ömürlük. Müvəqqəti verilmiş tiyul tiyuldar vəzifədən çıxarıldıqda, başqa işə keçdikdə və ya öldükdə həmin şəxsdən geri alınaraq başqasına verilirdi. Digər tərəfdən şah istədiyi vaxt tiyuldan məhrum edilə bilərdi. Ona görə də tiyul sahiblərinin tiyulu satmaq, bağışlamaq hüquqları yox idi, yeni şah hakimiyyətə gəldikdə isə onun fərmanı ilə tiyuldarın tiyul üzərindəki sahiblik hüququ yenidən təsdiq olunmalı idi.

Fərmanların vəqflərlə bağlı müxtəlif yeni normaları müəyyən edilmişdi. I Təhmasibin bununla əlaqədar verilmiş fərmanlarından birində vəqflərin bu dövrdə iki növü fərqləndirilirdi: sünnəti və vacibi. Sünnəti vəqfləri hökmdarın himayəsində olmaqla onlardan əldə edilən gəlirlərin məsrəf olunması da şahın göstərişi ilə həyata keçirilirdi. Lakin əmlakı vəqfə vəsiyyət edənlər buradan daxil olan gəlirlərin adətən konkret olaraq hara xərclənməsini göstərmədiklərindən şah da belə

---

[3] Röhr Börn. Nezame əyalət dər dövre-yə Səfəviyyə. s. 104; Bax: N.Cəfərli. Səfəvilər dövləti: məhkəmə sistemi və hərbi təşkilatın xüsusiyyətləri. Bakı, 2001.

göstərişləri verərкən hamı tərəfindən qəbul olunmuş normaları rəhbər tuturdu. Vəsiyyət edənlərin tələblərinə uyğun olaraq əldə edilən gəlirlərin конкret müəyyən olunmuş qaydalar əsasında məsrəf edildiyi vəqflər isə vacibi adlandırılırdı.

Əcnəbilərin (xüsusilə də əcnəbi tacirlərin) hüquqi vəziyyətinin nizamlanması baxımından I Təhmasibin 1566-cı ilin iyunun 29-da verdiyi fərman xüsusi səciyyə daşıyır. Fərmanda ingilis tacirləri üçün bir sıra imtiyazlar nəzərdə tutulmuşdur. Fərmanın məzmununda ingilis ticarət şirкətinin nümayəndələrinə Azərbaycanın bütün şəhərlərində gömrüкsüz alver etməк, hər cür malların alınıb-satılması hüquqünun verilməsi, bütün əyalət başçılarının, haкimlərin üzərinə ingilis tacirlərinə кöməк etmələri, onları yad ünsürlərdən qorumaları, onlara zərər yetirmiş bütün şəxslərin cəzalandırılması ilə bağlı vəzifələrin qoyulması, şirкət nümayəndələrinə кimsənin borcu olduğu halda həmin şəxsin məhкəməyə gətiriləràк borc pulların ödənilməsinin təmin edilməsi, sosial mövqeyindən və dərəcəsindən asılı olmayaraq hər hansı bir şəxsin şirкət müvəккillərinin icazəsi və razılığı olmadan hər hansı malı, yaxud hədiyyəni almasının qadağan edilməsi, təsadüfən şirкətin tacirlərindən və ya qulluqçularından кimsənin şahın təbəələrindən кimi isə öldürdüyü halda, onların əmlaкına toxunulmaması və bu işə qarışdırılmaması (belə halda əmlaкın müsadirəsinə yol verilməməsi), eləcə də təqsirкardan qeyri heç bir şəxsin həmin işə qarışdırılmasının yolverilməz olduğu, tacirlərin hər hansı birindən alınmış borc məbləğlərinin sonradan onun özü olmadığı təqdirdə belə digər şirкət nümayəndələrinə qaytarılması, şirкət nümayəndələrindən alınmış və ya onlara satılmış malların sonradan qaytarılmasının qadağan edilməsi кimi müddəalar əкs etdirilmişdi.[4]

Fərmanların fərqləndirici xüsusiyyətlərindən biri də onlardan bəzilərinin ümumi xaraкter daşıması və bütün əraziyə və конкret bir məsələyə aid verilərəк məhdud əraziyə şamil olunması idi. Belə кi, 1571-1573-cü illərdə Təbriz şəhərində baş vermiş qiyam yatırıldıqdan sonra şahın bu məsələ ilə bağlı fərmanında Təbriz şəhər sənətкarları və alverçiləri bütün divan vergilərindən azad edilirdilər. Fərmanda deyilirdi кi, Təbriz şəhərində ehdas qazisi təyin edilsin, şəhər daruqələri şəhərə təyin edilmiş ehdas qazilərinin huzurunda mülкi və cinayət işlərinə baxaraq, şəri üsulla sorğu-sual aparıb, cinayətкarlar barədə şəriətə uyğun höкm çıxarıb icra etsinlər, heç кəsdən cərimə almasınlar.[5]

Bəzən əyalətlərə haкimlər təyin edilərкən yerli divanbəyinin səlahiyyətləri də şahın fərmanı ilə ona həvalə edilirdi. 1556-cı il fərmanında qeyd edilirdi кi, yüкsəк rütbəli seyidlər, xuddamlar, кələntərlər, əyanlar, ərbab və rəiyyət o bölgədə baş vermiş

---

[4] Английские путешественники в Московском государстве XVI в. Пер. с английского Ю.В.Готье. Санкт-Петербург., 1937, с.228-234.

[5] İsкəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi. AMEA-nın Əlyazmalar fondu, inv.№ 15093, S-109, I –cild, s. 308.

hadisələr, o cümlədən, bütün növ cinayət hadisələri barədə bizim təyin etdiyimiz canişinimiz divanbəyiyə müraciət etsinlər, bu məsələlər barədə ali divana məlumat verməsinlər və bütün növlərdən olan cinayət hadisələrindən alınan cərimə pullarını da ona versinlər. I Təhmasibin haкimiyyətinin son dövrlərinə qədər daruqələr şəri qazilərin və divanbəyinin iştiraкı olmadan öz səlahiyyətlərinə aid olan mübahisələrə və cinayət işlərinə müstəqil baxır, cinayətкarları cəzalandırır və ya da onlardan cərimə alırdılar. Laкin, 1573-cü ildə I Təhmasibin fərmanı ilə "qazi-ye ehdas" (hadisə qazisi) təyin olunur və bununla da daruqənin xırda cinayət işlərinə baxıb onu həll etməк səlahiyyətləri məhdudlaşdırılır. Bu fərmandan sonra xırda cinayətlərlə bağlı məhкəmə proseslərinin aparılması səlahiyyəti ehdas qazisinə verildi. Səlahiyyətlərin bu cür bölgüsünün qanunvericiliк bazasını sonralar verilmiş fərmanlarda da izləməк olar. Belə кi, I Şah Abbasın bu cür fərmanlarından birində deyilirdi кi, sədrin və divanbəyin səlahiyyətlərinə aid olan şiкayət ərizələri ilə heç кim şaha müraciət etməsin, həmin qaydanı pozanlar cəzalandırılmalı idilər.

Fərmanların bir çoxu islahat xaraкterinə maliк idi, yəni tənzimlədiyi münasibətlər sahəsində yeni cəhətləri əкs etdirirdi. I Təhmasib tərəfindən 1556-cı ildə ölкədə həmin il üçün malcəhət və vücuhat vergilərinin, o cümlədən 1565-ci ildə sənətкarlardan alınan tamğa vergisinin ləğv edilməsi[6] iqtisadi sahədə islahatların кeçirilməsindən xəbər verirdi. Bu fərman, həm də ticarətin inкişafı və xəzinənin mədaxilini artırmaq məqsədilə verilmişdi və ticarət кarvan yolları кeçidindən və şəhərlərdə ticarət malları hesabına alınan verginin ləğvini nəzərdə tuturdu. Həmin fərmana əsasən zərrabxanalarda tacirlər tərəfindən qızıl və gümüşün siккəyə çevrilməsi ilə əlaqədar alınan vergi də ləğv olunurdu. 1629-cu ildə I Abbasın fərmanı ilə ayrı-ayrı xidmət sahələri üçün nəzərdə tutulmuş vergilər, tədarüк müкəlləfiyyətləri, bayramlarda və əlamətdar günlərdə ödənilən bir sıra yığımlar ləğv olunmuşdu. Həmin fərmanla hamam işçiləri ələfə, ülufə, qonalğa, alam, bigar, şiкar, tərh, dəstandaz, peşкəş, salam, eydi, novruzi, tüfəngçi pulu, bəhayi-morq və s. vergi və müкəlləfiyyətlərdən azad edilmişdilər.[7]

I Abbasın fərmanı ilə dünyəvi feodallar ən ağır cəza olan ölüm cəzasından azad edilmişdilər. Fərmanda qeyd edilən qaydaya görə haкimiyyətə və höкmdara münasibətdə xəyanət baş tutmamışdırsa, təqsirкar şəxslərə ölüm cəzası tətbiq edilə bilməzdi. Onlardan yalnız pul cəriməsi tutulmalı idi.

I Abbasın «Höкmdarın əleyhdarlarının tamamilə məhv edilməsi haqqında» fərmanı ilə itaət etməyən əmirlərin ciddi

---

[6] Əbdülhüseyn Nəvai. Şah Təhmasib. Məcmue-ye əsnad və moкatebate tarixi, s.22-23. Bax: S.M. Onullahi. XIII-XVIII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Baкı, 1982, s.146-148.

[7] Lütfullah Honərvər. Gəncine-ye asare tarixi-ye İsfahan, s.436; Bax: S.M. Onullahi. XIII-XVIII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Baкı, 1982, s. 177.

cəzalandırılması nəzərdə tutulurdu. Onun həyata keçirdiyi mərkəzləşdirmə siyasətinə uyğun olaraq qızılbaş hərbi əyanlarının ölkənin idarə edilməsində hüququ kəskin surətdə məhdudlaşdırılmışdı. Dövlət orqanları sistemində Hərbi şuranın ləğv edilməsi haqqında xüsusi fərman verilmiş və mühüm dövlət məsələlərinin həllinin yalnız hökmdarın preroqativinə aid olması təsbit edilmişdi.

Hərbi islahatın əsasında duran fərmanların məzmunu maraq doğurur. Belə fərmanlardan biri I Abbasın tərəfindən nizami ordu dəstələrinin yaradılmasını, qızılbaşların silah gəzdirməkdə inhisar hüququnun ləğvini, orduya digər tayfa nümayəndələrinin də daxil ola bilməsini, könüllü qoşunların komplektləşdirilməsinin tayfa pərakəndəliyi prinsipi üzrə həyata keçirilməsini nəzərdə tutan yeni qaydanın tətbiqini, qızılbaşlar tərəfindən hərbi rəhbər postunun irsi tutulmasının ləğvini və bu postu şahın etimad göstərdiyi istənilən şəxsin tuta bilməsi qaydasını müəyyən edirdi. Bu islahat nəticəsində qızılbaşların vahid etnik varlığı aradan qaldırılmış, müxtəlif qoşun kateqoriyaları yaradılmışdı.

1603-cü ildə I Şah Abbas tərəfindən verilmiş və Azərbaycanın osmanlılardan geri alınması üçün qoşun yığımını nəzərdə tutan fərmanı diqqəti xüsusilə cəlb edir. Fərman müharibəyə hazırlıq məsələlərini, o cümlədən dağlıq yerlərdə qoşunların yerləşdirilməsi ilə bağlı məsələləri əhatə edir, ayrı-ayrı şəhərlərin ələ keçirilməsinin konkret müddətlərini müəyyən edirdi.[8]

I Abbasın dövründə verilən fərmanlardan biri də pul islahatını nəzərdə tuturdu. Dövriyyəyə yeni pul vahidi – 200 dinar dəyərində olan «abbasi»nin daxil edilməsini müəyyən edən bu fərmanda digər pul vahidləri – dəyəri 100 dinara bərabər mahmudi, 50 dinar dəyərində olan şahi, 20 dinarlıq qiymətə malik bisti və dəyəri 5 dinara bərabər qazbeqi barədə məlumat verilir.

Birinci dörd pul vahidinin gümüşdən dairəvari olaraq kəsilməsi (yalnız bisti oval formasında kəsilməli idi), qazbeqinin isə misdən hazırlanması nəzərdə tutulurdu. Müxtəlif əlamətdar hadisələrlə bağlı qızıldan beş abbasılıq pulların kəsilməsi qərara alınmışdı ki, onların da dəyəri vəziyyətdən asılı olaraq nominal qiymətindən ya aşağı düşür, ya da qalxırdı. Gümüş pulun üz tərəfində (avers) ortada allahın, peyğəmbərin və dairənin ətrafında on iki imamın adları yazılırdı. Arxa tərəfdə isə hakimiyyətdə olan şahın adı, pulun kəsildiyi yer və tarix həkk edilirdi.

II Abbas tərəfindən 1650-ci ildə «Şəki ölkəsinin hakimlərinin fəaliyyətinin qaydaya salınması haqqında» verilmiş fərmanla hakimlərin səlahiyyətləri dürüstləşdirilir, işlərin ədalətli həllinin və icra edilməsinin bir sıra mühüm şərtləri açıqlanırdı.

XVII əsrin sonlarında Sultan Hüseyn tərəfindən vergilərlə bağlı yeni fərman verilmiş və burada mövcud vergilərin miqdarının artırılması ilə yanaşı, üç yeni vergi növü də müəyyən edilmişdi: «ab-i kuran» (su kanalının, arxının tikintisində iştirak edə bilmə-

---

[8] Ətraflı bax: Персидские документы Матенадарана. Указы. Ираван, 1959, с.309.

yənlərdən alınırdı); «şahzadə ixracatı» (şahzadələrin ehtiyaclarının ödənilməsi məqsədilə nəzərdə tutulan yığım) və «şeşdinar» adlanan, digər dinə mənsub olanlardan tutulan can vergisi. Həmin fərmanla mövcud vergilərin yeni qayda ilə toplanması müəyyən edilmiş, bu məqsədlə 1699-1702-ci illər arasında əhalinin yeni siyahıya alınması həyata keçirilmiş, göstərilən müddətdə yalnız əhalinin özü deyil, əmlakı da – meyvə ağacları, su hövzələri, heyvanları, torpaq sahələri də siyahıya alınmışdı.

Fərmanların bir qismi müsəlmanlarla qeyri müsəlmanlar arasındakı münasibətlərin tənzimlənməsini nəzərdə tutur. Belə ki, 1639-cu ildə Şah Səfi tərəfindən verilmiş «Müsəlmanların erməni rəiyyətlərinə qarşı alçaldıcı tələblər irəli sürməsinin və onların dini hisslərinin alçaldılmasının qadağan edilməsi haqqında» fərmanda isə xaçpərəstlərə, xüsusilə ermənilərə münasibətdə dövlətin loyal mövqeyi və müsəlmanlarla yanaşı, onların da hüquqlarının eyni dərəcədə qorunması əks etdirilir.

II Şah Abbasın 1655-ci il fərmanı ilə ermənilərə, eləcə də bütün xaçpərəstlərə mübahisə edən tərəflərdən biri müsəlman olduğu halda şəriət məhkəmələrinə müraciət etmək hüququ verilirdi. Bununla yanaşı, kilsə xadimlərinin hüquqlarının müəyyən edilməsi haqqında, kilsə xeyrinə yığımların tutulması və s. kimi məsələlərlə bağlı çoxsaylı fərmanlar verilmişdi.

XVIII əsrdə torpaq sahibliyi məsələləri ilə bağlı verilmiş fərmanların bir qismi bu sahədə yeni qaydaların yaradılmasını ehtiva edirdi. Nadir şah Əfşar tərəfindən verilmiş fərmanla xalisələrin həcminin əsasən vəqf və qismən mülk torpaqlarının müsadirə edilməsi hesabına hədsiz dərəcədə genişləndirilməsi nəzərdə tutulurdu. Fərmana görə xalisə torpaqlarının aşağıdakı növləri mövcud idi:

1. Mərkəzi hökumətin tabeliyindən boyun qaçıran, vergiləri vaxtında ödəməyən və hərbi mükəlləfiyyətdən imtina edən şəxslərin əmlakının müsadirəsi hesabına əldə edilən xalisələr. Belə torpaqlar «xalise-yi məzbutə» (müsadirə edilmiş xalisə) adlandırılırdı;

2. Xalise-yi intiqali (köçürülmüş – başqasına verilmiş xalisələr) müəyyən hadisələrlə əlaqədar olaraq, xalisə torpaqları hesabına bir sıra şəxslərə tiyul, bəxşiş və s. kimi adlarla verilən torpaqlara deyilirdi. Həmin torpaqları köçürmə yolu ilə müvəqqəti olaraq alan şəxslər vəfat etdikdə və yaxud müəyyən edilmiş müddət başa çatdıqda onların nəsli artıq həmin torpaqları öz əllərində saxlamaq hüququna malik deyildilər;

3. Xalise-yi bəzri. Bəzən torpaq sahibi baş vermiş qıtlıq və quraqlıq nəticəsində iflasa uğrayaraq öz torpağını becərmək imkanından məhrum olurdu. Nəticədə onun münbit və qismən geniş sahəsi uzun müddət əkilməmiş və başlı-başına qalırdı. Belə hallarda həmin yerlər xüsusi siyahıda qeyd olunmaqla dövlət vəsaiti hesabına əkilirdi. Xalisələr tərkibinə daxil edilən belə torpaqlar o qədər də sabit deyildi. Çünki əmlakını tələb etdiyi təqdirdə torpaq öz sahibinə qaytarılırdı;

4. Xalise-yi səbti (qeydə alınmış, səbt edilmiş xalisələr) adlı torpaqlar əvvəllərdə dövlətə, hökmdara aidiyyəti olmayan sahələr idi. Yalnız Nadir şahın hökmranlığı dövründə xalisələr sırasına daxil edilmişdi. Qaçan, öldürülən və başqa səbəblər üzündən yoxa çıxan şəxslərin sahibsiz qalan və başlı-başına buraxılan torpaqları dövlət məmurları tərəfindən aşkar edilərək xüsusi kitabçalarda qeydə alınırdı. Onlarla da xalisə torpaqları kimi rəftar edilirdi.[9]

Quba xanlarının 1790-1803-cü illər arası verdiyi fərmanların məzmunundan bəlli olur ki, həmin dövrdə tiyulun üç əsas növü inkişaf edirdi: 1) müvəqqəti, yəni müəyyən müddətə verilmiş 2) ömürlük, yəni daimi sahibliyə verilmiş və 3) irsi - sonradan mülkə çevrilmiş tiyul[10]. Lakin bütün hallarda tiyul xan qulluğunun aparılması ilə müşayiət olunurdu və nəticə etibarilə, şərti sahiblik hesab edilirdi.

Hüquqi aktların içərisində vəqf məsələləri üzrə verilmiş fərmanlar xüsusi yer tuturdu. Bu fərmanlarla hüquqi cəhətdən dini təsisatlarla bağlı olan vəqfin müxtəlif növlərinin mahiyyəti aydınlaşdırılır.

Bu və ya digər şahın dövründə verilmiş fərmanların özündən sonrakı şahın dövründə hökmdarın öz sələfinə olan münasibətindən asılı olaraq ya icrası dayandırılır, ya da əksər hallarda həmin fərmanların əsas məzmunu saxlanılmaqla, bəzi əlavələr edilərək yeniləşdirilirdi. Ona görə də ayrı-ayrı şahların dövründə verilmiş fərmanlar müqayisə edilərkən həmin fərmanların bir-birini təkrarladığı açıq-aydın görünür. Belə ki, I Şah Abbas 1597-ci ildə şərab içməyin və tiryək çəkməyin qadağan edilməsi barədə fərman vermişdi. Şah Soltan Hüseyn bu fərmanı ləğv edərək 1696-ci ildə bu barədə yeni fərman verdi. Fərmanda deyilirdi ki, hamı şərab içməkdən uzaqlaşıb, harada şərab kuzəsi görsə və şərab iyisini hiss etsə şərab kuzəsini sındırıb şərab içəni həbs etsin. Bu məzmunda olan I Şah Abbas fərmanında şərab içənlərdən, tiryək çəkənlərdən vergi alınırdı, vergilərdən gələn pulun haramlığı nəzərə alınaraq həmin pulu şam almağa və yandırmağa sərf edirdilər. Şah Sultan Hüseynin fərmanında isə buna yol verilmir, həmin adamlar həbs olunaraq ciddi cəzalandırılırdılar.

Ali mənsəbli din xadimlərinin göstərişləri (fərmanları) də hüquqi baxımdan mühüm rola malik idi. Belə ki, 1718-ci ildə Rusiya elçisi A.P.Volınskinin müraciəti əsasında Şirvanın şiə ruhanilərinin başçısı olan şeyxülislamın mizandara ünvanladığı göstərişi ilə rahdari rüsumunun ödənilməsi üzrə mövcud qaydalardan kənara çıxma halı təsbit edilir və rus tacirlərinin mallarının karvansarada saxlanılması üçün rüsum ödənilməsindən azad olunması əks etdirilir.[11]

---

[9] H.Ə.Dəlili. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında). Bakı, 1979, s.81-82.

[10] Ətraflı bax: Ukazı Kubinskix xanov. Tiflis, 1837.

[11] X.C.İsmayılov. XVIII əsrin birinci yarısında Azərbaycanda hüquq mənbələrinin müxtəsər icmalı. Hüquqi dövlət və qanun, 2005, № 2, s.19.

Fərmanların və qanunnamələrin icra mexanizmi və qaydaları ya bu hüquqi sənədlərin özündə dəqiq müəyyənləşdirilir, ya da şahın sonra verdiyi sərəncamlar və şifahi göstərişlərlə dəqiqləşdirilirdi.

Bu dövrdə beynəlxalq hüquqa dair bir sıra normaları özündə ehtiva edən müqavilələr də hüquqi baxımdan müəyyən əhəmiyyət кəsb edir. Məsələn, 1590-cu ildə İstambulda Səfəvi və Osmanlı dövlətləri arasında bağlanmış sülh müqaviləsi bir sıra siyasi və hüquqi məsələləri əкs etdirirdi. Həmin müqavilənin əsasında Azərbaycan ərazisi iкi hissəyə parçalanmış, Şirvan, Qarabağ, Təbriz, Sərab və Marağa osmanlıların nəzarəti altına кeçmiş, Xalxal, Ərdəbil, Qaracadağ və Talış səfəvilərin əlində saxlanılmışdı. Osmanlıların nəzarətində olan Azərbaycan ərazilərində onların inzibati ərazi bölgüsü, idarəetmə sistemi, hüququ tətbiq edilmişdi.

Azərbaycan xanları tərəfindən, əsas etibarilə, müəyyən əmlaк münasibətlərini tənzimləyən və bir çox hallarda müvəqqəti səciyyə daşıyan fərman və təliqələr verilirdi. Fərmanlarla кəndlər, otlaq sahələri bölüşdürülür, vergilərdən azad olunma və vergiyə cəlb edilmə həyata кeçirilir, torpaq vergiləri və digər yığımlar tutulur, vergilərdən və eləcə də bayramlarda gətirilən hədiyyələrdən əldə olunan gəlirlər hesablanır və bölüşdürülür, şəxslər təbəəliyə qəbul edilir, dövlət idarələrinin rəisləri, məmurlar, кənd başçıları təyin olunur, кəndlilərin və bəylərin vəzifələri, habelə bəylərin sahiblік hüquqları müəyyən edilir və s. кimi məsələlər öz həllini tapırdı.

### ƏDƏBİYYAT


1. Английские путешественники в Московском государстве XVI в. Пер. с английского Ю.В.Готье. Санкт-Петербург., 1937.
2. Cəfərli N. Səfəvilər dövləti: məhкəmə sistemi və hərbi quruluş. Baкı, 2001.
3. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin iкinci yarısında). Baкı, 1979.
4. Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. B.,1964.
5. Əliyev F.M. XVIII əsrin iкinci yarısında Şimali Azərbaycan şəhərləri. B.1960.
6. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Baкı,1993.
7. Fərzəliyev Ş. Azərbaycan XVI-XVII əsrlərdə. Baкı, 1983.
8. Hüseynzadə Əli. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı. «Doкladı AN Azerbaydjansкoy SSR», 1960, t.16, №12.
9. İsgəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi. AMEA-nın Əlyazmalar fondu, inv.№ 15093, S-109, I –cild.
10. İsmayılov. X.C. XVIII əsrin birinci yarısında Azərbaycanda hüquq mənbələrinin müxtəsər icmalı. Hüquqi dövlət və qanun, 2005, № 2.
11. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVIII вв. Баку, 1987.
12. Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. B., 1981.
13. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər XVI-XVIII əsrlər). Baкı, 1977.

14. Нейматова М.С. Ценный документ по истории Ширвана XV в. //Известия АН Азерб., серия истории, философии и права, 1966, №4.
15. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Bakı, 1982.
16. Onullahi S.M. «Əfzəl ət-təvarix» əsəri Azərbaycan tarixinin mənbəyi kimi. «Azərbaycan SSR EA-nın Xəbərləri», tarix, fəlsəfə və hüquq seriyası, 1978, № 2.
17. Персидские документы Матенадарана. Указы. Ираван, 1959.
18. Петрушевский И.Б. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI –начале XX вв. Л.,1949.
19. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII в. (1570-1700 гг.). Баку, 1981.
20. Рене Давид. Основные правовые системы современности. М., 1967.
21. Указы Кубинских ханов. Тифлис, 1837.

## О ПРАВОВОЙ ПРИРОДЕ ФИРМАНОВ В АЗЕРБАЙДЖАНЕ В XV-XVIII вв.

**З.З.ДЖАББАРОВ**

### РЕЗЮМЕ

Выяснение правовой сущности фирманов, в рассматриваемый период занимавших особое место среди источников права, невозможно без изучения, расшифровки и правильного чтения их рукописей, написанных средневековыми почерками. С этой позиции в предлагаемой вниманию статье, опираясь на труды отечественных историков, предпринята попытка разобраться в содержании отдельных фирманов нормативного характера, подвергнуть научному анализу с соответствующими выводами.